

*VAQİF YUSİFLİ*

# SƏMƏD VURĞUN - 120

## "DEMƏ SƏMƏD VURĞUN GƏLDİ, GEDƏRDİ"

1953-cü ilin mart ayında «ellər atası» Stalin vəfat etdi. Onda mənim beş yaşım vardı. Baxıb görürdüm ki, kəndimizin qocası da, cavanı da, kişisi də, qadını da yas içindədir, hamının sifətində kədər, qəm buludları kölgə salıb. Qulağıma gələn səslər bu idi: «Stalin ölüb. Biz neyniyəcəyik?». Amma həyat Stalinsiz də davam elədi. Bir neçə il keçdi, Stalinin şəxsiyyətə pərəstiş məsələsi ortaya çıxdı və tezliklə «ellər atası»nın heykəlləri uçuruldu.

1956-cı ilin may ayının 27-də Azərbaycanın ilk Xalq Şairi Səməd Vurğun ağır xəstəlikdən sonra vəfat etdi. Onda mənim səkkiz yaşım vardı. Bu dəfə də kənd sakinlərinin üzgözündə kədər, qəm gördüm. Nəinki bizim kənd, bütün Azərbaycan Səməd Vurğunun ölümünə təəssüflənirdi. Onun ölümündən yetmiş il keçib, amma bu illər ərzində Səməd Vurğun bütün nəsillərin ürəyində öz heykəlini ucaldıb.

Səməd Vurğun haqqında - onun şəxsiyyəti və yaradıcılığı barədə çoxlu, sayı=hesabı bilinməyən xatirələr, tədqiqat əsərləri qələmə alınıb. XX əsr rus nəsrinin görkəmli nümayəndəsi Aleksandr Fadeyev Səməd Vurğunun ən yaxın dostu idi. O, Mingəçevir Su-Elektrik stansiyasının işə salınması münasibətilə S.Vurğuna «Dost məktubu» göndərmişdi Yazırdı: «Xatırladım ki, dostlar həyatımızda ən böyük səadətdir və nə yaxşı ki, dünyada Səməd Vurğun var Qərar verdim ki, sənin əllərini sıxam, səndən xahiş edəm ki, bütün dostlara, Azərbaycan yazıçılarına mənim qardaşlıq salamımı yetirəsən». Gürcü şairi Georgi Leonidze yazırdı: «Səməd Vurğun Azərbaycan poeziyasının balı və südü, duzu və çörəyidir». Böyük türk şairi Nazim Hikmət deyib: «Səməd Vurğun qardaş dillərimizin böyük xalq şairi, dillərimiz yaşadıqca ölümsüz yaşayacaq». Görkəmli rus şairi Konstantin Simonov: «Heç cür inana bilmirəm ki, o, bir də gəlməyəcək, bu stolun qırağında oturmayacaq, burada-yanımda olmayacaq.. Yəqin həyatda, dostlarının qəlbində öz izlərini qoymuş yaxşı adamlar bu dünyadan köçəndə belə olur». Avar şairi Rəsul Həmzətov: «Azərbaycan və Səməd Vurğun birbirindən ayrılmazdır. Azərbaycan və Səməd Vurğun eyni bir məfhumdur. Çünki Səməd öz xalqının ən yaxşı xüsusiyyətlərini, onun sadəliyini, cəsarətliyini, dərin zəkasını və qüdrətli istedadını təcəssüm etdirir». Azərbaycan ədiblərinin, alimlərnin isə Səməd Vurğun haqqında xatirələrini, məqalə və çıxışlarını, monoqrafiyalarını saymaqla bitməz.. Mirzə İbrahimov, Mehdi Hüseyn, Mir Cəlal, Süleyman Rəhimov, Rəsul Rza, Süleyman Rüstəm, Məmməd Arif, Məmməd Cəfər, Hüseyn Arif, Əhməd Cəmil, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Nəbi Xəzri, Yaşar Qarayev, Bəkir Nəbiyev, Kamal Talıbzadə, Asif Əfəndiyev, Qulu Xəlilov .. Səməd Vurğun şəxsiyyətinin böyüklüyünü, onun mükəmməl şair obrazını dönə-dönə vurğulamışlar. Xalq yazıçısı Mehdi Hüseyn bir çıxışında demişdi: «Hər bir xalqın ədəbiyyatında elə yazıçılar var ki, birdən onların bir neçəsini ədəbiyyatdan götürsən, qətiyyən yeri görünməz. Lakin elə tək-tək sənətkarlar var ki onların yoxluğu ilə o xalqın ədəbiyyatında uçurum əmələ gələ bilər. Səməd Vurğun elə sənətkarlardan biridir və onsuz bizim ədəbiyyatdan danışmaq mümkün deyil».

Səməd Vurğun yaradıcılığı ilə bağlı bir neçə məqam üzərində dayanmaq istəyirəm.

Qeyri-adi poetik istedada malik olan Səməd Vurğun fəlsəfi poeziya ustası idi. Azərbaycan poeziyasında fəlsəfi xətt-şairlərin fəlsəfi fikir söyləmək, bir filosof kimi düşünmək meyli artıq bir ənənə halını almışdır.Nizami, Füzuli, Nəsimi, Hadi, Cavid kimi ölməz söz ustaları haqqında söz açılanda, onları filosof =şair kimi də təqdim edirik. Onlar filosofların həyat, varlı-yoxluq, ölüm, dünya, kainat, cəmiyyət, Tanrı, gözəllik haqqında düşüncələrini poeziya dili ilə ifadə etmişlər, yəni burada poeziyadan fəlsəfiyə doğru bir keçid var. Səməd Vurğun da bir çox şeirlərində həyat hadisələrinə fəlsəfi yüksəklikdən baxırdı. Və bu mənada onun şeirlərində fəlsəfə ilə poeziya qovuşurdu, bir vəhdət təşkil edirdi. Onun «Düşüncələr» şeiri fəlsəfi poeziyanın ən bariz nümunəsidir.

Gah olur ki, ovçu könlüm dağlar aşaraq,
Asta gedib, ağır gəzib ellər dolanır.
Səssiz keçən günlərimlə vidalaşaraq,
Haray çəkib, qıy qoparıb çöllər dolanır.

Bir quşcuğun uçuşunda bilsəniz nələr,
Nələr duyur bir şairin səyyar ürəyi.
İnsaf elə, deyilmidir canlı bir əsər
Yaşıl meşə, yaşıl tala, maral sürəyi?

Laçın qopur yuvasından öz sürətiylə,
Qoca dağlar baş qaldırıb boylanır göyə.
Kim uçmayır öz qəlbinin şeiriyyətiylə
Kim baxmayır bu aləmə yüksəliş deyə.

Bu dünyanfn xəritəsi bir rəngdə deyil,
Hər surətin öz nəqşi var bir əzəl gündən.
Qoca palıd əyilmədən yaşayır yüz il,
Qopanda da vüqar ilə qopur kökündən.

Deyirəm ki, uzaq yolda susuzluq çəkən
Bir insanın yollarında bulaq olaydım.
Bütün məslək dostlarımın bu dünyada mən
Hər qəminə, nəşəsinə ortaq olaydım.

Deyirəm ki, bayram günü çöldə, çəməndə
Ürəklərə nəğmə tutan bir ney olaydım.
Mən özümü bu dünyada, dünyanı məndə
Dərk eləyib mənə dolu hər şey olaydım.

Bu şeirdə lirik «mən» -Şair obrazı öz həyat otağından çıxıb dünyanın sevinci, kədəri və ümidi ilə qovuşur.- Dünyaya, insanlara, həyata belə fəlsəfi baxış Səməd Vurğunun digər şeirlərində də öz əksini tapır («Ürək», «Dörd söz», «Sözün şöhrəti», «Həyat fəlsəfəsi», «İstiqbal təranəsi»).

Səməd Vurğun yenilikçi şair idi. Bəzən bu yeniliyi aşıq şeirinin qanunları ilə eyniləşdirirlər, halbuki, o, həm forma, həm də məzmun baxımından klassik aşıq şeirinə novator kimi yanaşmış, qoşma və gəraylılarında, həmçinin əfsanə və rəvayətlər əsasında qələmə aldığı, folklordan bəhrələndiyi şeir və poemalarında özünəməxsus bir yol seçmişdir.

Səməd Vurğun ədəbi məktəb yaradan sənətkar idi. XX əsr Azərbaycan poeztiyasında üç şair ədəbi məktəb banisi hesab olunur- Mirzə Ələkbər Sabir, Səməd Vurğun və Rəsul Rza. Ədəbi məktəb bir sistemdir. Hər bir ədəbi məktəbin banisi poeziyada yeni bir yol açır, daha doğrusu, yeni bir ənənənin əsasını qoyur. Səməd Vurğun Azərbaycan poeziyasında heca şeirinin imkanlarını, onun forma zənginliyini, məzmun -ideya məndəricəsini yeni bədii səviyyədə ortaya çıxardı. Xalq şeiri-aşıq poeziyası onun şeirlərində təqlid- təkrar və mənimsəməyə yox, poetik obrazlılığa, hissin daha mükəmməl ifadəsinə yol açır. Baxıb görürsən ki, bu, qoşmadır, ya gəraylı, burada xalq şeirindən-aşıq poeziyasından gələn sözlər, ifadələr də var, amma o şeir (qoşma ya gəraylı) sənə yeni görünür.



Aşıq Şəmşir, Dəlidağdan keçəndə
Kəklikli daşlardan xəbər al məni.
Ceyran bulağından qızlar içəndə
Saz tutub, söz qoşub yada sal məni.

Hay vurub, qıy vurub, səs sal dağlara,
Gözəllər oylağı göy yaylaqlara.
Mənim bu dərdimi de oylaqlara-
Sinəmdən oxladı bir maral məni.

Bəxt məni bu yerə qonaqrdi,
Gedirəm, yamandır ayrılıq dərdi;
Demə Səməd Vurğun gəldi-gedərdi,
Unutmaz bu oba, bu mahal məni.

Səməd Vurğunun «Azərbaycan» şeiri ilə ədəbiyyatımızda vətənpərvərliyin, azərbaycançılığın poeziyada yeni bir dönəminə təməl verdi. «Mənə belə söyləyirlər» şeirində bir azərbaycanlı döyüşçünün-yaralı qızıl əsgərnin son nəfəsdə Səməd Vurğunun «Azərbaycan» şeirindən bircə bənd deyib gözlərini yumması bu vətənpərvərlyin ən bariz nümunəsi deyilmi?

Görüb tanış olmadığım
Qayğısına qalmadığım
Şeir dostu bir insandan
Bir xatirə söylədilər:
Bir yaralı qızıl əsgər
Son nəfəsdə səni andı,
Dəniz kimi dalğalandı...
Dinlə məni son nəfəsdə,
Qoy Vurğunun sözlərindən
Bir bənd deyim son dəfə mən;
«El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən,
Anam, doğma vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan! Azərбaycan!»

Hamımız yaxşı xatırlayırıq: Ulu Öndər Heydər Əliyev çıxışlarının birində Səməd Vurğunun həmin şeirindən o bəndi böyük qürur hissi ilə əzbər söylədi. Səməd Vurğun poeziyasının təsiri ilə qırxıncı-əllinci illərdə və onun ölümündən sonra da ədəbiyyata gələn gənc şairlər onun ədəbi məktəbinin davamçıları oldular. Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Nəbi Xəzri, Qabil, Əliağa Kürçaylı, İslam Səfərli, Adil Babayev, Məmməd Araz, Tofiq Bayram, Cabir Novruz, Nəriman Həsənzadə, Məstan Günər bu məktəbdə əsl poeziya dərsləri mənimsədilər. Lakin Səməd Vurğunun təsiri onların heç birinin yaradıcılığında təqlidə çevrilmədi. Bəxtiyar Vahabzadə Səməd Vurğun poeziyasındakı fəlsəfi xətti genişləndirdi, «İnsan və zaman» silsiləsində zamanın, əsrin qlobal probemlərinə münasibətini əks etdirdi. Yeri gəlmişkən qeyd edim ki, Bəxtiyar Vahabzadə Səməd Vurğunun həyat və yaradıcılığı barədə ilk elmi tədqiqat əsərinin müəllifidir. Hüseyn Arif isə Səməd Vurğunun xalq poeziyası ilə bağlılığını, təbiətə sevgisini öz yaradıcılığında müstəqil xəttə çevirdi. Haqqında söz açdığım digər şairlər də Səməd Vurğunun ədəbi məktəbinə -ondan gələn poetik ənənələrə sadiq qaldılar.

Səməd Vurğun ədəbi gəncliyin inkişafında da böyük rol oynamışdır. O, hər hansı istedadlı gənc şairin şeirlərinə dərhal münasibət bildirir, onların şeirlərinin çap olunmasına, həyati qayğılarına, xüsusilə təhsil məsələlərinə qayğı ilə yanaşırdı. O, 1945-ci ildə yazdığı «Mənim arzum» şeirində gənc şair Adil Babayevin istedadını yüksək qiymətləndirmişdi.

Daddımsa dünyanın hər nemətini,
Dilbər guşələrdə ötdüsə ömrüm.
Dünyanın ən böyük səadətini,
Bu boylu çınarın altında gördüm.

Səməd Vurğun Adil Babayevin şeirindəki bu misraları epiqraf kimi verib gənc şairə uğurlardiləmişdi.

Şair! Nə incədir rübabın sənin!
Uçurdu ruhumu çaldığın bu saz!
Vətən torpağında bitən gülşənin
Yarpağı saralıb çiçəyi solmaz.

Səməd Vurğun o zamanın gənc şairləri olan Əliağa Kürçaylının, İslam Səfərlinin də bir şair kimi formalaşmasında mühüm rol oynadı. Onlara qayğısını əsirgəmədi. Əliağa Kürçaylı Salyanda bir idarədə mühasib işləyirdi, amma şeir də yazır və ən böyük arzusu o idi ki, Bakıda-o qaynar ədəbi mühitdə görünsün. «Azərbaycan gəncləri» qəzetində şeirləri dərc edilmişdi. 1949-cu ildə onun bəxt ulduzu üzünə gülür. Onu Yazıçılar İttifaqında keçirilən respublika gənc yazarlarının 1-ci toplanışına dəvət edirlər. Yazıçılar İttifaqının sədri Səməd Vurğun Salyan rayon partiya komitəsinin birinci katibinə rəsmi məktub göndərir ki, Əliağa Kürçaylını o toplanışına göndərsin. Sonralar Əliağa Kürçaylının şair taleyində Səməd Vurğun müstəsna rol oynayır. İslam Səfərli də Səməd Vurğunun bəyəndiyi gənc şairlərdən biri olmuşdur. Universitetdə şairlə keçirilən bir görüşdə məhz S.Vurğunun xahişiylə İslam Səfərli öz şeirlərini oxuyur.

Səməd Vurğunun anadan olmasından 120 il, vəfatından 70 il keçir. Cəmi 50 il ömür sürdü. Sağlığında xalqın sevimlisinə çevrildi, keçmiş SSRİ məkanında seçilən, sayılan sənətkarlardan biri idi. Dünyada da tanınırdı. O, SSRİ Yazıçılar İttifaqının II qurultayında Poeziya haqqında məruzə elədi. Azərbaycan Elmlər Akademiyası təsis ediləndə ilk akademiklərdən biri oldu. Bununla yanaşı, sağlığında mənəvi işgəncələrə də, haqsız təqiblərə və tənqidlərə də düçar oldu, amma ona «toxunanların» hamısı tarixin qara arxivlərinə gömüldülər. Səməd Vurğun isə:

Məni yelkən kimi qərq etsə də
dəryada zaman,
Vurğun öldü deməyin,
bir əbədi sənəti var.

*2026*